YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
2022 13 oktyabr. - S.8.



# 13 oktyabr - Azərbaycan dəmiryolçularının peşə bayramıdır

***MÜŞFİQƏ***

*Çıx qatar yoluna hər axşam, səhər,*
*Çıx qatar yoluna, məni qarşıla.*

Bu gün Azərbaycan dəmiryolçuları öz peşə bayramlarını qeyd edirlər. Prezident İlham Əliyevin 2005-ci il oktyabrın 7-də "Dəmir yolu işçilərinin peşə bayramının təsis edilməsi haqqında" imzaladığı Sərəncama əsasən, oktyabrın 13-ü - müstəqil Azərbaycan dəmir yolunun yaradıldığı gün - hər il Azərbaycan dəmiryolçularının peşə bayramı kimi qeyd olunur.

142 illik tarixə malik olan Azərbaycan polad magistralı çox əzəmətli fəaliyyət yolu keçib. Azərbaycanda dəmir yolu tikintisinin birinci mərhələsi 1878-ci ildə başlanıb və 1880-ci il yanvarın 20-də uzunluğu cəmi 20 kilometr olan Bakı-Sabunçu-Suraxanı dəmir yolunun istifadəyə verilməsi ilə başa çatıb.

Bu xətlə dünyada ilk dəfə neftin vaqon-sisternlərlə daşınmasına başlanıldı. Amma çox keçmədi ki, eyni marşrutla sərnişin daşınmasına da start verildi. Bakıdan Sabunçuya 50-60 dəqiqəyə, Bakıdan Suraxanıya 90 dəqiqəyə çatmaq olurdu. Abşeron yarımadasında boru kəmərləri şəbəkəsinin genişlənməsi ilə Bakı-Sabunçu-Suraxanı dəmir yolu xətti bütünlüklə sərnişinlərin xidmətinə verildi.

Azərbaycanın müstəqilliyinin elan olunduğu gün Fətəli xan Xoyskinin təşkil etdiyi hökumət kabinəsində ilk nazirliklərdən biri Azərbaycan Xalq Cümhuriyyəti Yollar Nazirliyi idi. İlk yollar naziri vəzifəsinə məşhur ixtiraçı-mühəndis Xudadat bəy Məlik-Aslanov təyin olundu.



2009-cu ildə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. "Azərbaycan Dəmir Yolları" QSC Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə dəmir yolu nəqliyyatı sisteminin inkişafının beynəlxalq standartlar səviyyəsinə çatdırılması məqsədilə yaradıldı. Nazirlər Kabinetinin müvafiq qərarı ilə 15 fevral 2010-cu ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin nizamnaməsi və strukturu təsdiq olundu. 2015-ci il sentyabrın 18-də "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarılaraq müstəqil qurum elan edildi. Bu qərar "Azərbaycan Dəmir Yolları"nın daha operativ və çevik fəaliyyət göstərməsinə imkan verdi.

Məlumat üçün bildirək ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti yüklərin, sərnişinlərin, poçtun və baqajın dəmir yolları ilə daşınmasını təmin edən dövlət şirkətidir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verilib. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olan Bakı-Tbilisi-Qars xəttinin fəaliyyəti "Şərq-Qərb" nəqliyyat dəhlizində Azərbaycanın logistik imkanlarının artırılmasına gətirib çıxarıb.

Vətən müharibəsi dövründə gücləndirilmiş iş rejimində fəaliyyət göstərən "Azərbaycan Dəmir Yolları" QSC ölkənin ərazi bütövlüyünün bərpa edilməsində əhəmiyyətli rol oynadı. 44 gün davam edən müharibə ərzində dəmiryolçular cəbhəboyu zonada yerləşən stansiyalara və geriyə müxtəlif yüklər, o cümlədən hərbi texnika, qida məhsulları və yanacaq daşıyıblar.

Bundan əlavə, cəsarət təcəssümü olan Vətən müharibəsində 200-ə yaxın dəmiryolçu döyüşüb, onlardan dördü şəhidlik zirvəsinə ucalıb. Müharibə bitdikdən sonra işğaldan azad edilən ərazilərdə yerləşən dəmir yolu xətlərinin bərpasına start verilib.

Bir sözlə, ilk xəttin istifadəyə verildiyi 1880-ci ildən bu günə qədər dəmir yolları ölkəmizin iqtisadiyyatında, mədəniyyətində, əhalinin gündəlik həyatında önəmli rol oynamaqda davam edir. Hazırda 176 stansiyası var.

**Azərbaycan Dəmir Yollarının 2030-cu ilə qədər strategiyası**

"Azərbaycan Dəmir Yolları" QSC-nin "2030 Korporativ Strategiya"sının hazırlanması məqsədi ilə 2020-ci il mayın 21-də dünyanın aparıcı şirkətlərindən olan "McKinsey&Company" ilə müqavilə imzalanıb, sənədin işlənilməsinə start verilib.